Ədalət

Layihənin istiqaməti: Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği

№ 22 (2056) 27 fevral 2020-ci il

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

# M.P.Vaqifdə ali müdriklik hissi və gözəllik anlamı

**Molla Pənah Vaqif XVIII əsr Azərbaycan poeziyasının klassikidir və öz məktəbini yaratmışdır. Onun yaradıcılığının araşdırılmamış guşələri tədqiqatını gözləyir. Şeiriyyəti ana südü kimi təmiz və şirəlidir, analoqu olmayan nəsnədir. Dərinə vardıqca neçə-neçə suallara cavab axtarırsan, tapırsan, amma yenə də xəzi-nənin yerində gözün qalır. Mən belə bir istəkdən şairin poeziyasına üz tutdum və belə bir sualıma cavab axtarmalı oldum:**

M.P.Vaqif qadın gözəlliyinin atributlarını, əlamətlərini bu qədər zərgər dəqiqliyi, kişi görümü və poeziya diliylə tərənnüm (təs-vir) etmişsə bu, haradan (nədən) qaynaqlanır? Kino yox, televiziya yox, teatr da həmçinin, şairin işi - gücü dövlət işlərini, saray (idarəetmə) qayğıları buraxıb qa-dınları seyr etməkmi, özü də XVIII əsrdə? Cavabları tapmaq, yaxud yazmaq han-sısa boşluğu doldurmaq sakitliyi olardı. Şair qadın gözəlliyinin (bədənin, ədanın, baxışın) ilahi təsvirinə elə yanaşmış ki, heyrətlənməmək mümkünsüzdür. Bəlkə el-mi əsaslarına varmışdır şair: mümkün sayıram. Orta əsrlərin ilkin dövrlərindən Şərq dünyasında estetik mədəniyyətin inkişafı başlamış, araşdırmalar aparılmışdır, bu iş əlbəttə, poeziyadan bəhrələnmişdir. Şübhə etməzdim, Molla Pənah Vaqif qa-dının həm ezoterik (batini), həm də zahiri (görümü) əlamətləri barədə zəngin in-formasiyaya malik olmuşdur, eyni zamanda poetik təsvirə (yozuma) söykənmişdir. Bu, Şərq erotikasında "ali müdriklik" kimi səciyyələndirilmiş, rənglərin zəngin ça-larlarına bələnmiş; xoş əhval - ruhiyyə (sarı), təravət, rahatlıq (yaşıl), həyəcan (bə-növşəyi), həzinlik (boz), nəciblik (ağ) kimi vücudu hərəkətə gətirmişdir. İlk öncə, bu məsələ diqqətəlayiq filosofumuz, professor Niyazi Mehdinin tədqiqatı ilə də səsləşir, alim bu məsələdə "semiotika" (işarə, əlamət mənalarını bildirən elmi sahəsidir) terminindən bir tutacaq kimi yararlanmış, şəxsi mülahizələrində orijinal mövqeyini əsaslandırmışdır. Unutmayaq ki, Niyazi Mehdi şərqli filosof olaraq qadın gözəlliyinə laqeyd qala bilməzdi.

Qadın gözəlliyini - fiziki baxımdan - duyub qavramağın ilkin işarəsi gözdən başlayır, bu, adekvat olaraq qadına da məxsusdur. Fizikada ən mürəkkəb "göz" bəhsidir. Kişi qadının gözlərinə baxarkən, onun formasını (piyalə gözlər), rəngini (qara gözlər), ifadəsini (süzgün gözlər) mənimsəməyə çalışır və qadının obrazı yaradılır; habelə, həssas adam həmin məxluqun xasiyyətini də yoza bilir. Şairdirsə, şeir xasiyyətlidirsə onda məhəbbət, sevgi simtomları yaranır.

Aşıq Ələsgər elə-belə pıçıldamamışdı: "Gözüm bir alagöz xanıma düşdü". Gözlər ilk baxışda sirayət edir və bu "görüş"dən sevgi doğulur: sonrakı - gözlərin toqquşmasının elə bir əhəmiyyəti olmur, yəni adiləşir, ilk gözün təsirisni vermir.

Sonra "müjgan oxu" qadının üzünü, saçlarını "ovlayır", bədənin harmoniyasına "ilişir", hətta qadının davranışını, yerişini, oturuşu-duruşunu, ədasını diqqətdə saxlayır. Və qadının gözləri ədanın (qəmzənin), hiylənin, ovsunun işarəsi rolunu oynayır. Belə ki, qadın gözlərilə (baxışı) "oynayırsa", ehtirasında "qaynayırsa", kiprikləri "qanad"çalırsa - bu işarələr kişilərin hansı tipə məxsusluğunu müəyyənləşdirir: bir qrupunda erotik hiss oyadır, başqa birisində ikrah yaradır, üçüncüsündə uzaqlaşdırır. Sufi şeirində sufi kişinin vurğunluğu məşuqənin gözlərində naz - qəmzə, şuxluq və s. əlamətləri reallaşdırır. Qeyd edək ki, sufilik VIII əsrdə meydana gəlmiş mistik bir cərəyandır, hissi qavrayışı qəbul edir, insan kamilləşəndən sonra ekstaz (vəcd) halında intuisiya ilə mütləq həqiqətə gəlib çıxır.

Məlumdur ki, qadının bədənindəki bəzi üzvlər (sinəsi, döşləri, baldırları və sair) qapalı qalarsa daha güclü ehtiras doğurur, göz alışdığı nəsnəyə sonralar biganələşir, adiləşir, yəni çox əlamətləri "kəşf" etmiş olur, o cümlədən, üzün tam görünməsi. Teatrda "maska" anlayışı təsadüfi ortaya atılmamışdır və simvola çevrilmişdir. Poeziyada (teatrdan əsrlərlə qabaq) "niqab" işlədilir. "Maskanı üzdən fərqləndirən cəhət onun statikliyidir. Düzdür, niqaba çevrilmiş üz tam statiklənə bilmir, amma onun statikliyə meyli göz qabağındadır" (Niyazi Mehdi). Teatr maskası ilə niqabı tutuşduranda tamam fərqli ovqat əmələ gəlir: maska gülüş, niqab isə xoş ovqatı yaradır. İnsan düşünür: heyif ki, niqab qadının üz cizgilərini örtmüşdür, yanaqları, dodaqları, boğazı ("durna boğaz" epiteti işlədilir). M.P.Vaqif niqabı görəndə yalnız xəyalı ilə gözəli canlandırır, gözləri önünə gətirir:

*Niqab çəkib üzə, xalı gizlərəm,*
*Siyah zülfü, rəngi - alı gizlərəm.*
*Qönçə təki gül camalı gizlərəm,*
*Sallam səni ahu-zara , baxmaram.*

Yaxud:

*Ey niqab altından gizlin baxışlım,*
*Gözlərin alardı sərdən ağlımı.*
*Hindu xalın ləşkər çəkib üstümə,*
*Çapdı, yağmaladı birdən ağlımı.*

Şair gözəlliyi tam mənimsəmək üçün niqabın götürülməsini istəyir, onu (niqabı) maskalıqdan çıxarılması həsrətindədir:



*Sevdigim alaydı üzündən niqab,*
*Bir də baxıb, o camalı görəydim.*
*Tamaşa edəydim, qaşa, qabağa,*
*Həlqə zülfü, xətti, xalı görəydim.*

Niqabla bağlı professor N.Mehdi yazır ki, adətən niqab adama özünün aydın ciz-gilərindirilmiş obrazına yaranmaq üçün lazım olur. Dayanıqlı "qurumuş" formasının sayəsində niqab şəxsiyyətin "Mən"ində gedən davamlı dəyişmələri gizlədir, onu zamanın axarında dəyişməyən, zamandan düşmüş varlıq kimi göstərir.

"Fizioqnomika" adında bir elm sahəsi mövcuddur ki, sifət (üz) işarələrini bələdləyir (buna mütləq dəqiqlik xas deyil), çox hallarda zahir ilə daxili tərs mütənasibdir - forma ilə məzmun oxşarlığında. Hər halda klassik poeziyada bu yozumu təsvir etmişlər: Nizami, Əhvədi, Vaqif və başqa şairlər İnsanda (qadında) üz cizgiləri o şəxsin xarakteri, psixoloji halı barədə müəyyən təsəvvür yaradır. "Qabusnamə"də buna işarələr vardır. Fizioqnomika hər halda üz əlamətlərinin əxlaqi elementlərindən də yan keçmir: qaş, göz, burun, alın, dodaq, döş, diş və sairədən.

Şərq poeziyasında simmetriya qanununun öz yeri vardır, bu, həm şeir poeti-kasına, həm də insan (qadın) gözəlliyinə işarədir. Birinci başqa bir mövzudur. İkinciyə gəldikdə, qədd, xal, xətt, rux və s. portreti tamamlayır. Dahi Füzulidə oxuyuruq:

*Necə qəddü xalü xətü ruxun qəmi dərdü rüncü bəla ilə*
*Bükə qəddimi, tökə yaşımı, yıxa könlümü, yıxa canımı.*

Şairin məşhur bir beytində deyilir:

*Bülbüli - qəmzədəyəm, bağü-baharım sənsən,*
*Dəhənü qəddü ruxun - qonçövü sərvü səmənim -*

gözəlin ağzı, boyu, üzü qönçəyə, sərvə, səmənə bənzədilir, özünü qəmli sanır, bağını və baharını məşuqəsi ilə bağlayır Füzulu - bülbülün bağda gördüklərini öz gözlərində tapır.

M.P.Vaqif üz elementlərindən qaşın görümünü təsvir edir bir qoşmasında:

***Qaşın qabağında sığallı birçək,***
***Sayə salmış üzə şölə mübarək.***
***Amma iki dəstə tər bənövşətək,***
***Qoymuş al yanağın yan qabağında.***

Yaxud:

***Qaşa vəsmə, gözə sürmə çəkəndə,***
***Siyah zülfü dal gərdənə tökəndə,***
***Sallanıban kəklik kimi səkəndə***
***Oxşarsan yaşılbaş sonayə, Zeynəb!***

Yaxud:

***Dəhanin sədəfdir, dişlərin inci,***
***Sanasan ağızın püstədir, ay qız!***
***Xumar gözlərini sevəndən bəri***
***Dərdə düşüb, canım xəstədir, ay qız!***

Qadının üz (sifət) görünüşünün və jest hərəkətlərinin əks cinsdə yaratdığı erotik çalara vaxt olub müəyyən yasaqlar irəli sürülmüşdür. Qadın bədəninin aldığı dayanıqlı (statik) vəziyyət ifrat hala salınırsa təbii ki ayıb sayılır, haqlı iraddır. N.Tusidə də bu hal tənqid olunur, baxanlara hörmətsizlik təsiri yaradır. Qadının kişi(lər) qarşısında qılçalarını aşırmaq, yanpörtü söykənmək, bədənini əsdirmək və sair buna aid jestlərdir, pozalardır. Qadın (qız) üçün gözüdağınıqlıq, yeriyəndə sağa - sola hey baxmaq, açıq sinəni sığallamaq kimi hərəkətlər bu gün də davranışa ya-bançı sayılır (halbuki, bizim ekran belə hərəkətin təbliğat maşınına çevrilmişdir). Bu yanaşma orta əsrin ortalarına təsadüf edirdi. Lakin sonrakı çağlarda poeziya belə sərt işarələri bir növ yumşaltdı. Şərq kişiləri qərblilərlə müqayisədə daha temperamentli, gözəlpərəst, emosionaldır, hər halda müsəlman aləmində bunlar özünü göstərməyə bilməzdi. Davranış etiketləri emosional - impulsiv pozalara, jestlərə meyilli idi, bir də şairlər bunlardan xali deyildilər və pozalardan, naz - qəmzələr-dən məna çıxarmaq şeirin təsvir motivlərini şərtləndirirdi.

**(ardı növbəti sayımızda)**



***Allahverdi Eminov***

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ DƏSTƏYİ İLƏ DƏRC OLUNUR**